# Ümummilli lider barədə yeni filmin təqdimatı

***Nizami Kino Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə "LIDER" televiziyasının çəkdiyi "Unudulmaz" sənədli filminin təqdimat mərasimi keçirildi.***




"Unudulmaz" filmi mərhum Prezidentin Amerika Birləşmiş Ştatlarının Klivlend şəhərində olduğu günlərə həsr edilib. Azərbaycan tamaşaçısının indiyədək izləmədiyi, eşitmədiyi maraqlı məqamlarla zəngin olan bu filmdə ulu öndərə həkimlərin özəl münasibəti və digər maraqlı məqamlar yer alıb.

Təqdimat mərasimində Yeni Azərbaycan Partiyasının rəsmi nümayəndələri, "LİDER" Televiziyasının rəhbərliyi, Milli Məclisin deputatları, Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin əməkdaşları, filmin yaradıcı heyəti və digər qonaqlar iştirak edirdilər.

Jurnalist Elnur Niftəliyevin müəllifi olduğu bu film ulu öndərə həsr olunan qiymətli kino əsərlərindəndir.

***M.MÜKƏRRƏMOĞLU, "Xalq qəzeti"***